azərsu

"AZƏRSU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 03 (69) ● İyul-avqust 2020-ci il

w w w . a z e r s u . a z

Qaynar xətt - 955

"Su həyat deməkdir, təmiz su isə sağlam həyat deməkdir"

İlham Əliyev

Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirə keçirilib

səh. 2

"Su ehtiyatlarından səmərəli istifadəyə dair Tədbirlər Planı" təsdiq edilib

səh. 3

15 rayonun 24 kəndində subartezian quyuları qazılacaq

səh. 5

İçməli sudan qanunsuz istifadəyə qarşı nəzarət tədbirləri gücləndirilib

səh. 6-7

İyulun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib.

Su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirə keçirilib

Dövlət başçısı müşavirəni açaraq bildirib ki, infrastruktur layihələri arasında su layihələrinin xüsusi yeri var və son illər bu sahədə böyük işlər görülüb. Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsindən hazırda 70 faiz səviyyəsinə yüksəlib. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faizdən 82 faizə, regionlarda isə 9 faizdən 63 faizə qalxıb. Bu sahədə uğurlar qazanılsa da, hədəflərə tam nail olunmayıb. Buna görə içməli su və meliorasiya layihələri bundan sonra da ən vacib məsələlər olacaqdır. Müstəqillik illərində yaradılan yeni su mənbələrinin əhəmiyyətinə toxunan dövlət başçısı bildirib ki, Oğuz-Qəbələ-Bakı su kəməri vaxtında tikilməsəydi, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi. Eyni zamanda, Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşası nəticəsində Bakı şəhərinə keyfiyyətli suyun verilməsi təmin edilib.

Regionlarda həyata keçirilən içməli su layihələrinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, əksər şəhərlərdə içməli su və kanalizasiya layihələri icra olunub. Bu sahədə həm müsbət, həm də mənfi təcrübə təhlil edilməlidir. Dövlət başçısı ölkəmizin su balansının hazırlanmasının zəruri olduğunu xatırladıb.

Müşavirədə Baş nazirin müavini Şahin Mustafayev, Kənd təsərrüfatı naziri İnam Kərimov, Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Prezident Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri Kərəm Həsənov, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış ediblər.

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev sudan səmərəli istifadə ilə bağlı tapşırıqlar verib. Qeyd olunub ki, bəzi investisiya layihələri faktiki olaraq heç bir səmərə verməyib, bəzi layihələr üzrə təqdim olunan rəqəmlər əsaslandırılmayıb, həmçinin investisiya proqramına ciddi nəzarət olunmayıb. Yeraltı və yerüstü su ehtiyatları qiymətləndirilməyib, quraqlıq və bəzi hallarda aidiyyəti qurumların laqeyd münasibəti nəticəsində çox ciddi problemlər yaranıb. Rayonlardan aidiyyəti qurumlara göndərilən müraciətlərə əhəmiyyət verilmədiyinə irad bildirən dövlət başçısı qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslərin cəzalandırılmalı olduğunu bildirib.

Prezident İlham Əliyev su itkilərinə toxunaraq qeyd edib ki, 40-50 faiz itki dözülməz səviyyədir. Bir çox yerlərdə su xətlərinə qanunsuz qoşulmalar var və bu məsələyə heç kim cavabdehlik daşımır. Qanunsuz qoşulmalara qarşı heç bir cəza mexanizmi, yaxud da ki, nəzarət mexanizmi yoxdur. İtkilərin kəskin azaldılması ilə bağlı kompleks tədbirlər görülməlidir.

Dövlət başçısı iqtisadi səmərəliliyin təmin olunması ilə bağlı tapşırıqlıar verib.Bildirib ki, xərclərin süni şəkildə şişirdilməsinə qətiyyən yol vermək olmaz, bütün icra ediləcək layihələr açıq tender əsasında görülməlidir. Ümumiyyətlə, su sektorunda işləri səmərəli şəkildə davam etdirmək üçün vahid idarəetmə mexanizmi işlənməlidir.

Prezident İlham Əliyev qeyd edib ki, Neftçala şəhərinin maşınlarla su təchizatı həll olunmalıdır və ciddi nəzarətə götürülməlidir. Həmçinin Neftçala şəhərinə magistral su kəmərinin çəkilişi sürətləndirilməlidir.

Azərbaycanda içməli su ilə təminatın 100 faizə çatdırılmasını mühüm vəzifə kimi qarşıya qoyan Prezident İlham Əliyev su təhlükəsizliyi məsələlərinin öz həllini tapmalı olduğunun vacibliyini bildirib.

"Su ehtiyatlarından səmərəli istifadəyə dair Tədbirlər Planı" təsdiq edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında"s ərəncami mzalayıb.

Sərəncamda qeyd olunur ki, ölkədə infrastruktur quruculuğunun əsas sahələrindən olan su təchizatı sferasında mühüm işlər görülüb. Bu istiqamətdə dövlətin birbaşa dəstəyi ilə yeni sututarların yaradılması və şəbəkə infrastrukturunun genişləndirilməsi üzrə iri layihələr icra edilib. Həyata keçirilən tədbirlər hesabına su təsərrüfatı sisteminin inkişafı sürətlənib, məhdud şirin su ehtiyatlarına malik Azərbaycanda əhalinin fasiləsiz içməli su ilə təminatı və irriqasiya sistemi əhəmiyyətli dərəcədə yaxşılaşıb və müasirləşdirilib.

Ölkənin şirin su ehtiyatlarının azlığı, son illərdə müşahidə olunan qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların xeyli azalması, digər tərəfdən, əhalinin sürətli artımı, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın artması respublikanın su təhlükəsizliyinin təmin edilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini şərtləndirir.

Məhdud su ehtiyatları şəraitində, yeni iqtisadi çağırışlar nəzərə alınmaqla, ölkənin su təchizatı sistemi daha da yaxşılaşdırılmalı, ekosistemin inkişafı ilə uyğunluğu təmin olunmalı və bu məqsədlər üçün innovasiyaların tətbiqi təşviq edilməlidir.

Ölkə ərazisində mövcud olan su çatışmazlığı və su anbarlarında yaranmış vəziyyət nəzərə alınaraq, su ehtiyatlarının artırılması, istehlakçıların içməli su və suvarma suyu ilə təchizatının yaxşılaşdırılması məqsədilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı" təsdiq edilib.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə hər il ölkə üzrə son 3 ilin faktiki, cari ilin gözlənilən və növbəti ilin proqnoz göstəriciləri əsasında su təsərrüfatı balansını təsdiq etmək, sudan ödənişli istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla 2 ay müddətində təsdiqləmək və təsərrüfat subyektləri arasında sudan ödənişli istifadəyə dair uçotun həmin qaydalara uyğun təşkilini təmin etmək tapşırılıb.

"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya Tədbirlər Planının icrası zamanı dövlət orqanlarının fəaliyyətini əlaqələndirməli və görülən işlərin nəticələri barədə Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat verməlidir. Eyni zamanda, komissiya suvarma, içməli su təchizatı, energetika və sənaye sahələrində su ehtiyatlarından səmərəli və qənaətli istifadəni təmin etmək məqsədilə elmi müəssisələrlə (təşkilatlarla), mütəxəssislərlə, qeyri-hökumət təşkilatları ilə, beynəlxalq ekspertlər və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığı təmin etməlidir.

Tədbirlər Planında nəzərdə tutulan bəzi işlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən torpaqların dövlət kadastrı və daşınmaz əmlakın dövlət reyestri üzrə müvafiq məlumatlar "Azmelsutəsərrüfat" ASC-yə və "Azərsu" ASC-yə təqdim olunmalıdır. Həmçinin Maliyyə Nazirliyi ilə birlikdə nəzərdə tutulan tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinə isə su ehtiyatlarının qiymətləndirilməsi və onlardan səmərəli istifadənin təmin edilməsi ilə bağlı Komissiyanın fəaliyyətinə peyk xidmətləri vasitəsilə zəruri dəstək göstərməsi tapşırılıb.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində respublikada içməli və tullantı su təchizatı məsələlərinin müzakirəsinə həsr olunmuş görüş keçirilib.

Milli Məclisdə içməli su təchizatı ilə bağlı məsələlər müzakirə olunub

Görüşü Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov açaraq bildirib ki, altıncı çağırış Milli Məclisin ilk iclasında proqram xarakterli çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev vurğulayıb ki, parlament icra orqanları ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Həmin tövsiyədən çıxış edərək Azərbaycanda su çatışmazlığının yarandığı hazırkı dövrdə bu dinləmə Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə təşkilo lunub.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov respublikada su təminatı məsələləri, görülən işlər və mövcud vəziyyət barədə ətraflı məlumatv erib.

"Azərsu" ASC-nin sədri qeyd edib ki, hazırda su təminatı məsələsi dünyanı təhdid edən əsas problemlərdən biridir. Qlobal iqlim dəyişiklikləri və quraqlıq dünyada su ehtiyatlarına ciddi təsir göstərir. Son illərdə yağıntıların azalması, orta illik temperaturun yüksəlməsi su ehtiyatlarının azalmasına, quraqlığa səbəb olur və bütün bunlar ölkəmizdə də əhalinin içməli su təchizatına, eyni zamanda, aqrar sektorun suvarma suyu ilə təminatına təsir göstərir: "Su həyat deməkdir, təmiz su sağlam həyat deməkdir" fikrini irəli sürən dövlətimizin başçısı son illər Bakı şəhəri və Abşeron yarımadası, respublikanın regionları, kəndlərin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı sərəncamlar imzalayıb. Regional inkişaf proqramlarında əhalinin içməli su təminatının yaxşılaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulub. Görülən işlər əhalinin həyat şəraitini xeyli yaxşılaşdırıb. Bu ilin aprelində imzalanmış "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən Komissiya yaradılıb. Komissiya qısa zamandaç oxb öyüki şlərg örüb".

Q. Hüseynov Azərbaycanın şirin su ehtiyatları, onlardan istifadə vəziyyəti, son illər əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə Bakı şəhərində və regionlarda həyata keçirilən layihələrdən söz açıb. O, qeyd edib ki, 2010-2019-cu illərdə ölkəmizdə məhsuldarlığı saniyədə 19 kubmetrdən çox olan 44 məhsuldar su mənbəyi yaradılıb. Təkcə Abşeron yarımadasında həcmi 130 min kubmetrdən çox olan 16 su anbarı, 140 kilometr magistral su kəməri tikilib, 69 kilometr mövcud magistral kəmərlərin reabilitasiyası aparılıb, 2650 kilometr paylayıcı su şəbəkəsi, 4860 kilometr binadaxili xətlər çəkilib, 402 min ədəd su sayğacıq uraşdırılıb.

2013-2019-cu illərdə 3350 binanın daxili su kommunikasiya xətləri yenilənib. Zirzəmisi olan 6 min 53 binada tullantı su xətləri yenilənib, 3 min 55 binanın zirzəmisi təmir olunub. Suyun keyfiyyəti də ildən-ilə yaxşılaşdırılıb və standartalarat amu yğunlaşdırılıb.

Eyni zamanda, regionlarda 52 şəhər və rayon mərkəzində işlərə başlanılıb ki, bunların 30-da içməli su və tullantı su şəbəkələrinin, 12-də içməli su şəbəkəsinin inşası yekunlaşıb. Hazırda 12 şəhərdə işlər davam etdirlir. Yalnız 2 şəhərdə - Bərdə və Balakəndə layihələrin icrasına başlanılmayıb. Ötən müddətdə 1000-dən artıq kənd və qəsəbədə su layihələrii crao lunub.

Məruzəsinin yekununda "Azərsu" ASC-nin sədri su çatışmazlığı və itkilərin səbəbləri barədə də danışıb. Bu sırada magistral kəmərlərin şəbəkə kimi istifadə edildiyini, sayğacdankənar istifadə hallarını, ictimai bulaqları, bağ və həyət evlərində yaşıllıqların suvarılması zamanı sudan israfçılıqla istifadə olunduğunu, tikinti normalarına cavab verməyən fərdi şəbəkələrin mövcudluğunu qeyd edib, qarşıda duran əsas hədəflərdənd anışıb.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, deputatlar Asim Mollazadə, Nəsib Məhəməliyev, Sabir Rüstəmxanlı, Fatma Yıldırım, Məşhur Məmmədov, Rauf Əliyev, İltizam Yusifov, Naqif Həmzəyev fikirlərini bildiriblər. "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov deputatların suallarını cavablandırıb.

15 rayonun 24 kəndində subartezian quyuları qazılacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti əhalisi 65122 nəfər olan 15 rayonun 24 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 24 ədəd subartezian quyusunun qazılmasını təmin etsinlər. Göstərilən məqsədlər üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərsu" ASC-yə 756 min manat ayrılması nəzərdə tutulub.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə isə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Sıra №-si	Rayonun adı	Quyuların sayı, ədəd	Yaşayış məntəqələrinin adı	Əhalinin sayı, nəfər
1.	Balakən	1	Sarıbulaq kəndi	2631
2.	Beyləqan	1	Mil qəsəbəsi	2456
		1	Milabad qəsəbəsi	2465
		1	Yeni Mil qəsəbəsi	2313
3.	Bərdə	1	Xanxanımlı kəndi	398
		1	İkinci Nazırlı kəndi	817
		1	Kələntərli kəndi	2100
4.	Biləsuvar	1	Təzəkənd kəndi	1879
5.	Cəlilabad	1	Üçtəpə kəndi	8179
6.	Goranboy	1	Xınalı kəndi	1018
		1	Yolqulular kəndi	819
7.	Kürdəmir	1	Şilyan kəndi	5436
8.	Quba	1	Vladimirovka kəndi	3230
9.	Neftçala	1	Xol Qarabucaq kəndi	2724
10.	Şabran	1	Çölquşçu kəndi	901
		1	Pirəmsən kəndi	862
11.	Şəmkir	1	Dəllər Cırdaxan kəndi	3145
12.	Tərtər	1	İsmayılbəyli kəndi	1549
		1	Sarov kəndi	1870
		1	Səhləbad kəndi	2142
13.	Ucar	1	Qazyan kəndi	6868
14.	Yardımlı	1	Mirimli kəndi	1642
15.	Zaqatala	1	Aşağı Tala kəndi	7304
		1	Göyəm kəndi	2374
Cəmi:		**24**	**24**	**65 122**

Balakən şəhərinin içməli və tullantı su infrastrukturları yenidən qurulacaq

Prezident İlham Əliyev "Balakən şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin icrası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Balakən şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması məqsədilə layihələndirmə və tikinti-quraşdırma işlərinin icrası üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat

fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 1 milyon manat ayrılıb.

Qeyd edək ki, hazırda Balakən şəhərində 1960-70-cı illərdə yaradılmış infrastruktur istismar edilir. Şəhərə içməli su Sildik, Qara və Hinbul çaylarından və subartezian quyularından verilir. Balakən şəhərində mövcud olan 87,5 km uzunluğunda paylayıcı su şəbəkəsi uzun illər istismar olunaraq yararsız vəziyyətə düşüb və tələbatı ödəmir. Paylayıcı şəbəkənin 10 km-lik hissəsi müxtəlif dövrlərdə yenidən qurulub. 10 min nəfər əhalisi olan Balakən şəhəri əhalisinə içməli su qrafiklə verilir. 15 km uzunluğunda mövcud kanalizasiya şəbəkəsi şəhərin bir hissəsini əhatə edir və uzun müddətdir istifadə olunduğundan istismara yararsız vəziyyətdədir.

İçməli sudan qanunsuz istifadəyə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə içməli su sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, israfçılıq və su itkilərinin qarşısının alınması barədə tapşırıqlarının icrası məqsədilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətində Tədbirlər Planı hazırlanıb və işlərə başlanıb. Bu məqsədlə xüsusi qruplar yaradılıb, həm Abşeron yarımadasında, həm də regionlarda nəzarət tədbirlərigü cləndirilib.

İlkin araşdırmalar içməli sudan qeyri-qanuni və uçotsuz istifadə hallarına daha çox Bakıətrafı qəsəbələrdə, əsasən həyət və bağ evlərində, həmçinin bəzi kommersiya obyektlərində rast gəlindiyini göstərir. Xəzər, Sabunçu, Suraxanı, Binəqədi, Abşeron rayonlarında, eləcə də bağ massivlərində su şəbəkələrinə baxış keçirilərkən içməli sudan qanunsuz istifadə ilə bağlı bir sıra neqativ hallar aşkarlanıb. Məlum olub ki, bir qrup vətəndaş və sahibkarlıq subyektləri "Azərsu" ASC-dən texniki şərt almadan və müqavilə bağlamadan qeyri-qanuni yolla su kəmərlərinə müdaxilə edərək su çəkib və içməli sudan uçotsuz istifadə edirlər.

Abşeron rayonu Hökməli dairəsi yaxınlığında, Koroğlu küçəsində obyekt sahibi texniki şərt almadan, özbaşına Hökməli kəndini qidalandıran magistral kəmərə müdaxilə edərək 100 mm diametrli boru ilə su xətti çəkib. Bu xətt vasitəsilə həm obyektini su ilə təmin edib, eyni zamanda, xüsusi sudoldurma məntəqəsi yaradaraq sudaşıyan maşınlara su satışı ilə məşğul olub. Fakt aşkarlanan kimi obyektin su təchizatı dayandırılıb, sudan qeyri-qanuni istifadə halı sənədləşdirilərək dəymiş ziyan hesablanıb. Həmin ərazidə yerləşən ət kəsimi məntəqəsində də sudan qanunsuz istifadə halı qeydə alınıb.

Nəzarət tədbirləri çərçivəsində Sabunçu rayonu Maştağa qəsəbəsi ərazisində Maştağa su anbarından Buzovna qəsəbəsinə çəkilmiş tranzit magistral kəmərə ərazidə yaşayanlar tərəfindən 25 nöqtədə qanunsuz müdaxilə halları aşkarlanıb. Hətta bir ünvanda xətdən 63 mm diametrli boru ilə qanunsuz su çəkilərək kənd təsərrüfatı məqsədilə istixanalarda və digər əkin sahələrində istifadə edilib. Abşeron rayonu Ceyranbatan qəsəbəsi yaxınlığında vətəndaşlar tətərfindən magistral xəttə müdaxilə edilərək 50 mm boru ilə su çəkilib və kollektor sistemi yaradılıb. Buradan götürülən su ilə böyük bir ərazidə yonca sahəsi və bostan bitkiləri suvarılıb, eyni zamanda, ətrafdakı fərdi yaşayış evlərinə su verilib.

Abşeron rayonu Masazır qəsəbəsində gecə saatlarında keçirilən reyd zamanı yaşıllıqların suvarılması üçün nəzərdə tutulan su təchizatı sistemindən avtoyuma məntəqəsinə qeyri-qanuni xəttin çəkilməsi aşkar olunub. Hökməli qəsəbəsində isə sudaşıyan maşınlara suyun doldurulmasının qarşısı alınıb. Belə bir hal Xəzər rayonu Mərdəkan qəsəbəsində də aşkarlanıb. Su satışı ilə məşğul olan şəxs yanğın hidrantından qanunsuz su doldurarkən yaxalanıb.

qarşı nəzarət tədbirləri gücləndirilib

Aparılan nəzarət tədbirləri çərçivəsində Abşeron, Binəqədi, Sabunçu rayonlarında OBA və Almarket şəbəkələrinə məxsus bir neçə mağazada, eləcə də Bakı-Sumqayıt yolunun kənarındakı supermarketdə sudan uçotsuz istifadə hallarının qarşısı alınıb.

Ceyranbatan-Maştağa yüksək təzyiqli magistral su xəttinin Ramana qəsəbəsindən keçən hissəsində 110 mm diametrli borularla qeyri-qanuni xətt vasitəsilə götürülən sudan ərazidəki istixana kompleksində suvarma məqsədilə istifadə edildiyi məlum olub. Magistral xəttin Savalan yaşayış massivindən keçən hissəsində isə bir qrup şəxs kəmərə müdaxilə edərək ərazidə süni sututar yaradaraq heyvanların suvarılması üçün istifadə edib.

Ən çox müdaxilə hallarına qəsəbələrin inkişaf ərazilərində, yeni salınan massivlərdə rast gəlinir. Belə ki, Maştağa qəsəbəsi Baloğlan Bağırov küçəsinin sakinləri tərəfindən özbaşına tikinti normalarına cavab verməyən su şəbəkəsinin yaradılması və magistral xəttə qoşulma faktı aşkarlanıb. Xəzər rayonu Binə qəsəbəsində aparılan nəzarət

tədbirləri zamanı vətəndaşların xüsusi texnikaların köməyi ilə xəndəyin qazılması və uzaq məsafədən su xəttinin çəkilməsinə hazırlıqların görüldüyü aşkar edilib.

Aparılmış nəzarət tədbirləri zamanı Xəzər rayonunun Binə, Şağan, Qala qəsəbələrində, Binəqədi rayonunun Binəqədi, Sulutəpə, Xocahəsən, Abşeron rayonunun Masazır, Saray, Hökməli, Qobu qəsəbələrində də əhali tərəfindən özbaşına su xətlərinin çəkildiyi aşkarlanıb. Əsasən gecə saatlarında xəlvəti icra edilən bu işlərin qarşısını almaq üçün rayon sukanal idarələrinin əməkdaşlarına axşam və gecə saatlarında ərazilərdə reydlər aparmaq tapşırığı verilib.

Sudan qeyri-qanuni istifadə halları aşkarlanarkən "Azərsu" ASC-nin əməkdaşları tərəfindən su xətlərinə qanunsuz qoşulmalar ləğv edilir, istifadə olunmuş suya görə dəymiş ziyan hesablanır, həmçinin içməli su şəbəkələrinə qoşulma qaydaları barədə əhali ətraflı məlumatlandırılır.

Qeyd etmək istəyirik ki, içməli sudan qanunsuz istifadə israfçılığa, itkilərə, magistral kəmərlərdə və şəbəkələrdə suyun optimal idarəedilməsində ciddi çətinliklərə və tələbatın artdığı isti dövrlərdə hidravlik rejimlərin pozulmasına səbəb olur. Nəticədə magistral kəmərlərdə və şəbəkələrdə təzyiq aşağı düşür, istehlakçıların dayanıqlı su təchizatını aparmaq mümkün olmur, hətta bəzi ərazilərə suyun verilişində fasilələr yaranır ki, bu da abonentlərin haqlı narazılıqlarına səbəb olur. Təhlillər onu göstərir ki, sudan qanunsuz istifadə edilən evlərdə və obyektlərdə böyük israfçılığa yol verilir, sayğaclı abonentlərlə müqayisədə dəfələrlə çox su istifadə edilir.

"Dövlət başçısının tapşırıqlarına uyğun olaraq içməli sudan qeyri-qanuni və uçotsuz istifadənin aşkar olunması, israfçılıq və itkilərin qarşısının alınması ilə bağlı "Azərsu" ASC tərəfindən nəzarət tədbirləri davamlı aparılacaq.

Neftçala şəhərinə çəkilən magistral su kəmərinin 60 faizi inşa edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq içməli su çatışmazlığının müşahidə olunduğu Neftçala şəhərində su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Hazırda Neftçala şəhərini içməli su ilə təmin edəcək magistral su kəmərinin və su anbarının tikintisi həyata keçirilir. Eyni zamanda, şəhərə və ətraf kəndlərə nəqliyyat vasitələrilə içməli suyun daşınması təmine dilib.

Neftçala şəhəri və ətraf kəndlərin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə icra olunan layihəyə əsasən, su mənbəyi Şirvan-Muğan qrup su kəməri seçilib. Buradan Neftçala şəhərinə özüaxımlı rejimdə suyun verilməsini təmin etmək üçün Salyan şəhərinin yaxınlığında relyef baxımından nisbətən yüksəklikdə 7500 kubmetr tutumu olan su anbarı inşa edilir. Bununla paralel olaraq su anbarından Neftçala şəhərinə qədər 560 mm diametrli polietilen borularla 44 km uzunluğunda magistral su kəmərinin inşası davam etdirilir. Hazırda su anbarının tikintisi üzrə işlərin 50 faizə qədəri icra olunub. Magistral kəmərin isə 28 km-lik hissəsində işlər yekunlaşıb. Bununla da su anbarının və magistral kəmərin tikintisi üzrə işlərin 60 faizi icra edilib. Tikinti-quraşdırma işlərinin cari ilin noyabr ayında başa çatdırılması nəzərdə tutulur. Yeni tikilən magistral su kəməri Neftçala şəhərindəki mövcud şəbəkəyə birləşdirildikdən sonra suyunv erilməsit əmined iləcək.

Qeyd edək ki, son vaxtlar Kür çayında suyun azalması səbəbindən codluğun yüksəlməsi suyun keyfiyyətinə təsir edib və onu içməyə yararsız hala salıb. Buna görə də rayon mərkəzinin, eləcə də ətraf kənd və qəsəbələrin içməli suya olan tələbatı maşınlarla daşının su hesabına təmin olunur. İyul-avqust aylarında hər gün Salyan rayonundan 30-dan çox nəqliyyat vasitəsilə Neftçalaya su daşınıb. Daşınan su məhəllələrdə quraşdırılmış çənlərə, həmçinin kəndlərdəki modul tipli sutəmizləyici qurğuların anbarlarına doldurulub. Əhaliyə verilən içməli suyun keyfiyyətinə səyyar laboratoriyalar tərəfindənm ütəmadin əzarəto lunub.

Neftçala şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində gələcəkdə Neftçala şəhəri, eləcə də şəhər mərkəzinə bitişik Bankə və Kürkənd qəsəbələrində 118 km içməli su, 116 km kanalizasiya şəbəkələri, 8,6 km kanalizasiya kollektoru və tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə tullantı sutəmizləyici qurğunun inşası planlaşdırılır.

Gəncə şəhərində 35 min abonent fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub

Respublikanın ikinci böyük şəhəri, böyük sənaye potensialına malik Gəncədə əhalinin içməli su təminatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə həyata keçirilən layihə real bəhrəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2020-ci ilin mart ayında Şəmkirçay Sutəmizləyici Qurğular Kompleksinin istismara verilməsi, eləcə də Göygöl və Qızılqaya mənbələrinin yaradılması, magistral kəmərlərin, anbarların və şəbəkələrin tikilməsi Gəncə sakinlərinin dayanıqlı və təhlükəsiz içməli su təminatına imkan verib.

Yeni su mənbələrinin və su təchizatı infrastrukturunun yaradılması hesabına Gəncə şəhərində gün ərzində qrafikli rejimlə və günaşırı su alan 35 mindən artıq abonent fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Şəhərdə tikintisi başa çatan şəbəkələrin istismara verilməsi nəticəsində əvvəllər əhalini su ilə təmin edən 45 subartezian quyusunun fəaliyyyəti dayandırılıb. Yaxın aylarda daha 17 subartezian quyusunun istismardan çıxarılması nəzərdə tutulur. Subartezian quyularının fəaliyyətinin dayandırılması istismar və elektrik enerjisi xərclərinə qənaətə imkan verir.

Qeyd edək ki, Azərbaycan Hökumətinin Almaniya İnkişaf Bankı ilə birgə maliyyələşdirdiyi layihə çərçivəsində Gəncə şəhərində inşası nəzərdə tutulan 855 km içməli su şəbəkəsinin 360 km-lik, 813 km tullantı su xətlərinin 270 km-lik hissəsinin inşası yekunlaşıb.

Siyəzən və Şabran rayonlarında 3 kəndin içməli su təchizatı yaxşılaşdırılır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti kəndlərdə əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Siyəzən rayonunun içməli su çatışmazlığından əziyyət çəkən Sədan və Eynibulaq kəndlərinin, eləcə də Şabran rayonunun Taxtalar kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə yeni layihələrin icrasına başlanıb.

Siyəzən rayonunun Sədan və Eynibulaq kəndlərinin əhalisi uzun illər içməli su çatışmazlığından əziyyət çəkib. Eynibulaq kəndində bir neçə il əvvəl icra olunmuş layihə çərçivəsində kəndin bəzi yerlərində bulaqlar quraşdırılsa da, əhalinin bir hissəsi içməli suyu uzaq məsafədən daşıyıb. Sədan kəndində isə su təchizatı sistemləri, ümumiyyətlə, mövcud olmayıb və sakinlər suya olan tələbatlarını daşınan su hesabınaö dəyib.

Sədan və Eynibulaq kəndlərinin içməli su probleminin həlli məqsədilə icra olunan layihəyə əsasən, kəndlərə suyun Şollar-Bakı su kəmərindən verilməsi nəzərdə tutulur. Bu məqsədlə Siyəzən şəhərini qidalandıran magistral xətdən birləşmə verilərək kəndlərə 6 km uzunluğunda polad borularla magistral su xətti çəkilir. Sədan və Eynibulaq kəndləri relyef baxımından yüksəklikdə yerləşdiyindən suyun nəqli ikipilləli nasos sistemi vastəsilə aparılacaq. Bu məqsədlə 2 yerdə - yeni magistral xəttin qoşulma nöqtəsində və Sədan kəndinin girişində 2 ədəd nasos stansiyası və 25 kubmetr tutumu olan su anbarları tikiləcək. Bu infrastrukturlar hesabına içməli su Sədan kəndində yeni tikilən 100 kubmetr tutumu olan anbara vurulacaq və özüaxımlı rejimdə kəndə veriləcək. Sədan kəndində əhalinin ümumi istifadəsi üçün 26 ədəd bulaq quraşdırılacaq. Eynibulaq kəndində isə mərkəzləşdirilmiş 6 km uzunluğunda içməli su şəbəkəsi yaradılacaq və 170 ünvana evb irləşməsiv eriləcək.

Layihənin icrasının yaxın vaxtlarda başa çatdırılması nəzərdə tutulur. Bununla da Siyəzən rayonunun Sədan və Eynibulaq kəndlərinin 2000-dək sakini dayanıqlı və təhlükəsiz içməli su ilə təmino lunacaq.

***

Dövlət investisiya proqramı çərçivəsində Şabran rayonunun içməli su çatışmazlığından əziyyət çəkən Taxtalar kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə yeni layihənin icrasınab aşlanıb.

Şabran rayonunun Taxtalar kəndinin əhalisi uzun illər içməli su çatışmazlığından əziyyət çəkib. Vaxtilə rayonun Dağ Bilici kəndindəki bulaqdan kəndə su xətti çəkilib və bulaq quraşdırılıb. Bir neçə il əvvəl quraqlıq səbəbindən su təchizatı dayanıb, mövcud su təchizatı sistemləri isə yararsız vəziyyətə düşüb. Ötən müddətdə sakinlər içməli su tələbatlarını maşınlarla daşınan su hesabınaö dəyib.

Taxtalar kəndinin içməli su probleminin həlli məqsədilə "Azərsu" ASC tərəfindən layihə hazırlanıb və tikinti-quraşdırma işlərinə başlanılıb. Layihəyə əsasən, kəndin içməli su təchizatı Şabran şəhəri yaxınlığındakı su anbarı hesabına təmin olunacaq. Taxtalar kəndi relyef baxımından yüksəklikdə olduğundan suyun kəndə nəqli üçün nasos stansiyası quraşdırılacaq. Hazırda su anbarından kəndə qədər 114 mm diametrli polad borularla 4,8 km uzunluğunda magistral su kəmərinin tikintisi davam etdirilir. Bununla paralel olaraq kənd ərazisində 3,7 km uzunluğunda paylayıcı su şəbəkəsi inşa edilir. Artıq su xətlərinin yarıdan çoxu çəkilib. Kənd ərazisində müxtəlif məhəllələrdə əhalinin ümumi istifadəsi üçün 19 ədəd bulaq quraşdırılacaq. Bununla da Şabran rayonunun Taxtalar kəndinin 1000-dək sakini keyfiyyətli içməli su ilə təmino lunacaq.

Qazax şəhərində içməli su və tullantı su layihələrinin icrası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramına uyğun olaraq Qazax şəhərinin içməli su və kanalizasiya sistemləri yenidənq urulur.

Qazax şəhərində 1970-ci illərdə yaradılmış su təchizatı sistemləri istismara yararsız vəziyyətə düşüb. Ötən dövrdə əhali artımı və məskunlaşmanın genişlənməsi səbəbindən infrastruktur mövcud və perspektiv tələbatı qarşılamaq iqtidarında deyil. Bütün bunlar nəzərə alınaraq 2019-cu ildə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi layihə çərçivəsində Qazax şəhərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasınab aşlanıb.

Layihə Qazax şəhərində 26 min nəfərin su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə layihədən 45 min sakin faydalanacaqdır.

Qazax şəhərini və ətraf kəndləri dayanıqlı içməli su ilə təmin etmək üçün Ağstafa rayonu ərazisində qazılması nəzərdə tutulan 12 subartezian quyusunun 7-si qazılıb. Su mənbəyindən Qazax şəhərinə 9 km magistral su kəmərinin 4 km-lik hissəsi çəkilib. Şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün tutumu 10 min kubmetr olan su anbarının tikintisi üzrə işlərin 60 faizindən çoxu yerinə yetirilib. Qazax şəhərində inşası nəzərdə tutulan 106 km paylayıcı su şəbəkəsinin 80 km-lik hissəsi tikilib. Ümumilikdə yeni şəbəkədən 5870 ünvana birləşmə verilərək sayğaclar quraşdırılacaq. Bununla paralel olaraq şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulur. Şəhər ərazisində inşası nəzərdə tutulan 82 km kanalizasiya şəbəkəsinin, 4,4 km kanalizasiya kollektorunun tikintisi üzrə işlərin 70 faizi icrao lunub.

İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır. Şəhərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi davamet dirilir.

İşçilərin əmək şəraitinin yaxşılaşdırılması və istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə Qazax Sukanal Sahəsi üçün müasir tipli inzibati binanın tikintisi yekunlaşıb və hazırda binada son tamamlama işləri aparılır.

Ölkə əhalisinə göstərilən içməli su təchizatı və kanalizasiya xidmətlərinin günün tələbləri səviyyəsində qurulması məqsədilə yeni infrastrukturlar yaradılır, istismarda olan su və kanalizasiya xətlərində vaxtaşırı təmir-bərpa işləri aparılır, mümkün qəza hallarının qarşısı vaxtında alınır. İstismar müddəti başa çatmış köhnə infrastruktur, eləcə də müəyyən texnogen amillər bəzən qəza hallarına yol açır.

Təcrübə öz sözünü deyir

2020-ci il avqustun 17-də paytaxtın mühüm kanalizasiya infrastrukturlarından sayılan Sahil kollektorunda baş vermiş qəza da bu baxımdan istisna deyildi. Əgər vaxtında müdaxilə edilməsəydi, qəza tullantı sularının kənarlaşdırılmasında çox ciddi çətinliklərə gətirib çıxaracaqdı...

Sahil kollektoru Bakı şəhərinin mərkəzi hissəsində formalaşan tullantı sularının kənarlaşdırılmasında müstəsna rol oynayır. 1978-1980-ci illərdə tikilib istismara verilən kollektorun uzunluğu 9,5 kilometr, diametri isə 1860 millimetrdir. Məhsuldarlığı sutkada 230 min kubmetr təşkil edən kollektor tullantı sularının Hövsan Aerasiya Stansiyasına ötürülməsində mühüm rol oynayır.

Kollektorun ahəngdar işini təmin etmək, baş vermiş qəzaları vaxtında aradan qaldırmaq və təmir-bərpa işlərini aparmaq məqsədilə hər birinin diametri 6 metr olan 14 şaxta inşa edilib. Şaxtaların dərinliyi relyefdən asılı olaraq 9 metrdən 34 metrədək dəyişir.

Qəza kollektorun 13-cü şaxtasında baş vermişdir. Şaxtada qrunt sularının kollektora daxil olması nəticəsində torpağın alt qatı yuyulmuş, nəticədə yuxarı qatlarda çökmə baş vermişdir. Çökmə prosesi isə öz növbəsində şaxtanın divarlarında çatların yaranmasına səbəb olmuşdur.

Qəzanın araşdırılması məqsədilə "Azərsu" ASC və Bakı Sukanal İdarəsi tərəfindən təxirəsalınmaz tədbirlərə başlanılıb, mühəndis və texniklərdən ibarət qrup əraziyə göndərilib, texnika və maşın-mexanizmlər səfərbər olunub. Böyük dərinliyə malik şaxtaya daxil olmaq, burada lazımi tədqiqat işləri aparmaq olduqca riskli və çətin bir iş hesab olunur. Bütün bunlara baxmayaraq, Bakı Sukanal İdarəsinin mühəndis və çilingərləri bu çətin işin öhdəsindən məharətlə gəlməyi bacardılar. Ekstremal şəraitdə qəzanın aradan qaldırılmasında mühəndislər Ceyhun Həsənov, Əlihüseyn Manaflı, çilingər Vüqar Dünyamalıyev xüsusi peşəkarlıq nümayiş etdirdilər. Məhz onların peşəkarlığı və kanalizasiya infrastrukturunun iş prinspinə yaxından bələd olmaları işə yaradı.

Qəzanın aradan qaldırılmasını təmin etmək üçün gecə saatlarında şəhərin mərkəzi hissəsinə içməli suyun verilməsi məhdudlaşdırıldı və bu da öz növbəsində kollektorda tullantı sularının azalmasına imkan verdi. Kollektorun qəza baş vermiş hissəsinin dəqiq tədqiqi məqsədilə xüsusi kamera quraşdırıldı. Görüntülərdən aydın oldu ki, kollektora daxil olmuş qrunt sularının təsiri nəticəsində 13-cü şaxtanın başlanğıcında 30x50 santimetr ölçüdə dağılma baş vermiş, çatlar yaranmışdır. Şaxtalararası məsafənin qalan hissəsinin isə qrunt sularının təsirinə məruz qalmadığı dəqiq müəyyən edilmişdir.

Avqustun 21-də axşam saatlarında yenidən şaxtaya enən qəza-bərpa işçiləri qarşıya çıxan çətinliklərə baxmayaraq, tapşırılan işin öhdəsindən layiqincə gəlməyi bacardılar.

(Davamı 12-ci səhifədə)

Təcrübə öz sözünü deyir

(Əvvəli 11-ci səhifədə)

Ekstremal şəraitə baxmayaraq, kollektorun qəzalı hissəsi xüsusi materialla bərpa edildi. Bütün gecəni yorulmaq bilmədən çalışan 12 fədakar işçinin birgə səyi nəticəsində səhər saat 7 radələrində qəzanın nəticələri tam aradan qaldırıldı.

Bu işi yüksək peşəkarlıqla yerinə yetirən işçilərin əməyi qiymətləndirilib. Qəzanın aradan qaldırılmasında xüsusilə fərqlənən "Bakı Sukanal" İdarəsinin Kollektorların istismarı şöbəsinin mühəndisləri Ceyhun Həsənov, Əlihüseyn Manaflı və çilingər Vüqar Dünyamalıyev "Azərsu" ASC sədrinin əmri ilə Fəxri Fərmana layiq görülüb, əmək haqqının üç misli qədər mükafatladırılıblar. Bu işdə xüsusi əməyi olan 9 işçiyə isə pul mükafatı verilib. Eyni zamanda, həmin işçilərin əməyin ödənilmə və ixtisas dərəcələri artırılıb.

Qəzalarla bağlı müraciətlər Teleqram şəbəkəsi üzərindən göndərilir

Müasir dövrdə sosial şəbəkələrdən istifadənin geniş vüsət alması nəzərə alınaraq bir sıra xidmətlər sosial şəbəkələr üzərindən tətbiq edilir. "Azərsu" ASC-nin "Su təchizatı və tullantı sularının axıdılması sistemində baş vermiş qəzaya dair müraciət" elektron xidmətinin Teleqram sosial şəbəkəsi üzərindən aparılmasına başlanıb. Bu xidmətin köməyi ilə vətəndaşlar içməli su və tullantı su sistemlərində baş vermiş qəzalarla bağlı "Azərsu" ASC-yə asanlıqla müraciət edə bilərlər.

Qeyd edək ki, indiyədək bu xidmətdən istifadə www.azersu.az saytı və www.e-gov.az portalına keçid almaqla aparılırdı. Bundan sonra abonentlər Teleqram şəbəkələrinə qoşulmaqla xidmətdən yararlana biləcəklər. Təqdim edilən xidmətdən mobil qurğulardan Telegram Messenger proqramını yükləməklə (App Store, Play Market və s.) istifadə etmək mümkündür. Telegram səhifəsinə qoşulduqdan sonra "Azərsu" ASC-nin xidmətləri təqdim edilən Azersu (Azersubot) səhifəsinə keçid edilir. "Ana səhifə"də təqdim olunan xidmətlərin siyahısı verilir və vətəndaşlar "Qəza bildirişi" xidmətini seçməklə su təchizatı və tullantı sularının axıdılması sistemində baş verən qəzalar barədə məlumat göndərə bilərlər. Bu məqsədlə əks əlaqə üçün aktiv əlaqə telefonu, elektron poçt ünvanı, şəxsiyyət vəsiqəsindəki FİN kodu daxil etməli, daha sonra qəzanın içməli su və ya tullantı su xəttində olduğunu təsdiqləməli və tələb olunan digər məlumatları daxil etməlidir. Növbəti əməliyyatda qəzanın baş verdiyi ərazi daxil edilir və qəzanın fotoşəkili göndərilir. Muraciətin sistemdə qeydiyyatı uğurla tamamlandıqda bu barədə məlumat ekranda göstərilir.



Müraciət qeydiyyata alındıqdan sonra Cəmiyyətin müvafiq struktur vahidinə icraya yönləndirilir. Daxil olan müraciətə aidiyyəti əməkdaşlar tərəfindən baxılaraq araşdırılır və təqdim olunan məlumatlar düzgün olduğu təqdirdə müraciət icra üçün qəbul olunur. Müraciət müvafiq qaydada icra olunduqdan sonra nəticəsi haqda məlumat abonentin elektron poçt ünvanına, sms vasitəsilə mobil telefonuna və Telegram səhifəsinə göndərilir.